BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Emmanuel Makronun Afrika Turu: Fransanın Afrika doktrinasının transformasiyası


## Lalə Xəlilzadə

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


MAY 2026

## Emmanuel Makronun Afrika Turu: Fransanın Afrika doktrinasının transformasiyası

- **Emmanuel Makronun Afrika turu Fransanın qitədə zəifləyən təsirini yenidən bərpa etmək cəhdi kimi qiymətləndirilir;**
- **Paris artıq Afrikada hərbi və siyasi təsirə əsaslanan ənənəvi modeldən uzaqlaşaraq investisiya, texnologiya və iqtisadi tərəfdaşlıq üzərində qurulan yeni münasibətlər sistemi formalaşdırmağa çalışır;**
- **"Africa Forward" sammitində verilən mesajlar Fransanın Afrikanı yardım alan region deyil, qlobal iqtisadi və geosiyasi proseslərin mühüm aktoru kimi qəbul etdiyini göstərdi;**
- **"Africa Forward" sammitində Afrika üçün elan olunan 23 milyard avroluq investisiya paketi Fransanın qitə ilə iqtisadi əməkdaşlığı yeni mərhələyə keçirmək niyyətini ortaya qoydu;**
- **Səfər həm də Çin, Rusiya, Türkiyə və Körfəz ölkələrinin Afrikada artan təsiri fonunda Fransanın mövqeyini yenidən gücləndirmək cəhdi kimi qiymətləndirilə bilər;**
- **Makron administrasiyası xüsusilə enerji, süni intellekt, infrastruktur və təhsil sahələrində əməkdaşlığı genişləndirərək Fransa–Afrika münasibətlərini "qazan-qazan" prinsipi əsasında yenidən qurmağa çalışır;**
- **Bununla yanaşı, Fransanın Sahel regionunda zəifləyən nüfuzu və qitədə artan rəqabət Parisi Afrika siyasətini yeni geosiyasi reallıqlara uyğunlaşdırmağa vadar edir.**

9–12 may tarixlərində Fransa Prezidenti Emmanuel Makron Misir, Keniya və Efiopiyanı əhatə edən Afrika turunu həyata keçirdi. Səfər çərçivəsində E.Makron bir sıra ikitərəfli görüşlər keçirməklə yanaşı, Nayrobidə təşkil olunan və Mərakeş, Madaqaskar, Benin, Seneqal və Nigeriyanın iştirak etdiyi "Africa Forward" sammitində iştirak etdi. Fransa prezident administrasiyası bu tədbiri Makronun 2017-ci ildə bu vəzifəyə gəlişindən sonra Afrika liderlərinin geniş iştirakı ilə keçirilən ən mühüm platformalardan biri kimi qiymətləndirdi.[1]

Bu səfər Parisin Afrikada siyasi və iqtisadi təsirini yenidən formalaşdırmaq cəhdlərini əks etdirir. Bu strategiyanın əsasən dörd istiqamət üzrə formalaşdığını demək olar:

- **Diplomatik mövqenin bərpası:** xüsusilə Sahel və Qərbi Afrika regionlarında Fransanın zəifləyən nüfuzunun yenidən gücləndirilməsi;
- **İqtisadi maraqların genişləndirilməsi:** enerji, infrastruktur, texnologiya və ticarət sahələrində yeni tərəfdaşlıqların və investisiya imkanlarının əldə edilməsi;

[1] https://www.elysee.fr/en/emmanuel-macron/2026/05/11/africa-forward-summit-in-kenya-day-one

- **Təhlükəsizlik və geosiyasi rolun artırılması:** Qırmızı dəniz, Afrika İttifaqı və regional sabitlik kimi strateji məsələlərdə daha fəal iştirak;
- **Qlobal rəqabətə cavab:** Çin, Rusiya, Türkiyə və Körfəz ölkələrinin Afrikadakı artan təsirinə qarşı balanslaşdırıcı mövqe formalaşdırmaq.

**Misir səfəri**

Emmanuel Makron Afrika turuna Misirdən başladı. Səfər Fransa və Böyük Britaniyanın qlobal ticarət marşrutlarının təhlükəsizliyini təmin etmək məqsədilə Qırmızı dəniz və Hörmüz boğazında beynəlxalq dəniz koalisiyasının yaradılması ilə bağlı müzakirələrin aparıldığı dövrə təsadüf etdi. Yelisey Sarayının məlumatına əsasən, səfərin əsas məqsədi Fransa və Misir arasında strateji tərəfdaşlığın yeni mərhələyə yüksəldilməsidir.

Fransa Prezidenti İsgəndəriyyə şəhərində Misir Prezidenti Əbdülfəttah Əs-Sisi tərəfindən rəsmi şəkildə qarşılandı. İki lider arasında keçirilən görüşdə əsas diqqət ikitərəfli münasibətlərin inkişafına və regional gündəmdə olan məsələlərə yönəldi. Xüsusilə Yaxın Şərqdə davam edən münaqişələr, Qırmızı dənizdə naviqasiya təhlükəsizliyi və ümumi regional sabitlik məsələləri müzakirə olundu.

Makron və Əs-Sisi daha sonra İsgəndəriyyənin Burc Əl-Ərəb bölgəsində yerləşən **Səncur Universiteti**nin (Senghor University) yeni binasının açılış mərasimində iştirak etdilər. Frankofon dünyasına aid olan bu ali təhsil müəssisəsi Afrika inkişafı üzrə ixtisaslaşır və Misirin beynəlxalq təhsil əməkdaşlıqlarında mühüm rol oynayır. **Habelə, bu universitet Fransanın Afrikadakı mədəni təsirinin vacib elementlərindən biri hesab olunur.**

Universitetin təşəbbüsü frankofon ölkələrin əməkdaşlığı çərçivəsində Misirli diplomat, hüquqşünas və BMT-nin keçmiş Baş katibi (1992–1996) **Butros Butros-Qali** tərəfindən irəli sürülmüşdür. Layihə Misir hökumətinin dəstəyi ilə həyata keçirilmişdir.

Misirin Fransadakı səfiri və UNESCO yanında daimi nümayəndəsi **Tarek Dahrog** bildirib ki, Səncur Universiteti yalnız akademik müəssisə deyil, həm də Misir, Fransa və ümumilikdə frankofon dünyası arasında **"sivilizasiya körpüsü"** rolunu oynayır. Onun sözlərinə görə, bu platforma eyni zamanda Afrika qitəsi ilə əməkdaşlığın gücləndirilməsinə xidmət edir.

Ərəb Dünyası İnstitutunun (Arab World Institute) prezidenti və Fransa Prezidentinin keçmiş müşaviri **Anne-Claire Legendre** isə bildirib ki, bu səfər frankofoniya layihəsinin gücləndirilməsi kontekstində xüsusi əhəmiyyət daşıyır və Misir Afrika və ərəb dünyasında fransız dilinin yayılmasında Fransanın əsas tərəfdaşlarından biridir.[2]

[2] زيارة الرئيس الفرنسي إيمانويل ماكرون إلى مصر

Qeyd edək ki, Fransa son illərdə Misirdə təhsil və peşə hazırlığı layihələrinə dəstəyini artırıb. Bu layihələr arasında Səncur Universiteti və Misirdəki Fransa Universiteti xüsusi yer tutur. Bu təşəbbüslər gənc kadrların hazırlanması və Misirin regional təhsil mərkəzi kimi rolunun gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Xatırladaq ki, bu səfər Makronun ötən il Misirə etdiyi səfərin davamıdır. Həmin səfər nəticəsində iki ölkə arasında münasibətlər "strateji tərəfdaşlıq" səviyyəsinə yüksəldilmişdi. Hazırkı səfər isə iki ölkə arasında keçirilən Misir–Fransa strateji dialoqunun ilk raundundan sonra baş tutub.[3]

Səncur Universitetinin yeni binasının açılışı Keniyada keçirilən **"Africa Forward"** sammiti ilə eyni dövrə təsadüf etdi.

**"Africa Forward" sammiti**

Misir səfərinin ardından Fransa Prezidenti E.Macron 10–12 may tarixlərində keçirilən "Africa Forward" sammitində iştirak etmək məqsədilə Keniyaya səfər etdi. Sammit Fransa–Afrika münasibətlərinin yeni mərhələsini müzakirə etmək, iqtisadi əməkdaşlığı genişləndirmək və xüsusilə gənclər, innovasiya, enerji və investisiya sahələrində tərəfdaşlığı gücləndirmək məqsədi daşıdı.[4]

Sammitin açılış sessiyasında E.Makron Keniya Prezidenti Vilyam Ruto ilə birlikdə iştirak etdi. Çıxışı zamanı E.Makron Fransa–Afrika münasibətlərinin transformasiyası ilə bağlı bir sıra diqqətçəkən mesajlar verdi:

- Makron çıxışında Afrika qitəsi üçün ümumilikdə **23 milyard avro**luq investisiya elan edildiyini bildirdi. Bunun **14 milyard avro**sunun Fransa şirkətləri, **9 milyard avro**sunun isə afrikalı investorlar tərəfindən təmin olunacağı qeyd edildi. O, enerji, süni intellekt, mədəniyyət, təhsil və infrastruktur sahələrini əsas əməkdaşlıq istiqamətləri kimi göstərdi;
- "Africa Forward" sammitinin əvvəlki Fransa–Afrika sammitlərindən fərqli olaraq dövlət başçılarından daha çox, gəncləri, sahibkarları və investorları mərkəzə qoyduğunu bildirdi;
- Afrikanın artıq **"yardım alan qitə"** kimi deyil, investisiya və birgə istehsal üçün strateji tərəfdaş kimi qəbul edilməli olduğunu vurğuladı.
- Fransanın uzun illər Afrikaya **"arxa bağçası"** kimi yanaşdığını, lakin bu dövrün artıq başa çatdığını və münasibətlərin dəyişməli olduğunu etiraf etdi;
- Çin, Türkiyə və ABŞ kimi ölkələrin Afrikada daha rəqabətli olduqları üçün Fransanın əvvəlki iqtisadi üstünlüyünü itirdiyini qeyd etdi;

[3] الرئيس الفرنسى إيمانويل ماكرون يزور جامعة القاهرة ويشهد فعاليات ملتقى الجامعات المصرية الفرنسية.. ووزير التعليم العالى: شراكات جديدة مع الجامعات الفرنسية تسهم في توفير التدريب والتأهيل ودعم الابتكار - اليوم السابع

[4] https://x.com/EmmanuelMacron/status/2054454282301079761?ref_src=twsrc%5Etfw%7Ctwcamp%5Etweetembed%7Ctwterm%5E2054454282301079761%7Ctwgr%5Ee77b2cd8bf057a0e048ed62bfbcf2cc9df8c3fa3%7Ctwcon%5Es1_&ref_url=https%3A%2F%2Fwww.elysee.fr%2Fen%2Femmanuel-macron%2F2026%2F05%2F11%2Fafrica-forward-summit-in-kenya-day-one

- Afrikanı **“dünyanın ən dinamik qitəsi”** adlandıraraq, qitənin iqtisadi artımının artıq Cənub-Şərqi Asiyanı da geridə qoyduğunu bildirdi;
- Gələcək modelin **“birgə investisiya, birgə istehsal və birgə innovasiya”** üzərində qurulacağını və münasibətlərin bərabərlik prinsipinə əsaslanmalı olduğunu əlavə etdi;
- O, Afrika iqtisadiyyatının əsas problemlərindən birinin qeyri-rəsmi sektorun üstünlük təşkil etdiyini və bunun dəyişməsi üçün iqtisadi strukturlaşmanın vacibliyini vurğuladı;
- Makron Afrikanın inkişafı üçün beş əsas prioriteti sadaladı: **təhsil, enerji, infrastruktur, iqtisadi strukturlaşma və böyük həcmli dövlət–özəl investisiyaları;**
- Çıxışın sonunda Makron bəyan etdi ki, **Fransanın Keniya və bütün Afrika ilə münasibətlərində artıq “yeni dövr” başlayıb və bu prosesdən geri dönüş olmayacaq.**[5]

Sammit çərçivəsində müəyyən mübahisəli hadisələr də yaşanıb. Nayrobi şəhərində keçirilən gənclərlə bağlı sessiya zamanı auditoriyada yaranan səs-küyə əsəbiləşən E.Makron tədbiri qısa müddətlik dayandıraraq bunu “tam hörmətsizlik” adlandırıb. O bildirib ki, danışmaq istəyənlər zaldan kənarda danışmalı və çıxış edən şəxslərə hörmət etməlidirlər.[6]

Hadisə sosial mediada geniş rezonans doğurub. Bəzi istifadəçilər Makronun davranışını “nizam-intizam yaratmaq cəhdi” kimi qiymətləndirsələr də, digərləri bunu paternalist və **“kolonial tərzdə davranış”** kimi tənqid ediblər.

Bununla yanaşı, sammit yaxınlığında anti-Fransa və anti-imperialist etiraz aksiyaları keçirilib, polis bəzi etirazçıları saxlayaraq, nümayişi dağıdıb. Bəzi media qurumları Makronun çıxışında özünü **“Pan-Afrikaçı”** kimi təqdim edən mesajlar verdiyini iddia edib və bu da əlavə polemika yaradıb.

**Fransanın Afrikada dəyişən mövqeyi**

Fransanın Afrikadakı təsirini göstərən əsas faktorlardan biri fransız dilinin yayılma miqyasıdır. Dünyada fransız dilində danışan təxminən 400 milyon insanın təqribən 44 faizi Afrikada yaşayır. Konqo Demokratik Respublikasının paytaxtı Kinşasa isə, dünyanın ən böyük fransızdilli şəhəri kimi tanınır.

Fransanın Afrikaya münasibətdə yeni strategiyası son illərdə qitədə təsir imkanlarının zəifləməsi fonunda formalaşır. 2020-ci ildən etibarən **Mali, Burkina Faso və Niger** kimi ölkələrdə baş verən hərbi çevrilişlər Fransanın təsirini ciddi şəkildə zəiflədib və

---

[5] https://www.elysee.fr/front/pdf/elysee-module-26610-en.pdf
[6] https://www.youtube.com/watch?v=4xYOkhR39gs

Fransa qoşunlarının bölgədən çıxarılması ilə nəticələnib. Eyni zamanda Rusiyanın bölgədə təsiri artıb.

Fransa 2025-ci ilin iyul ayında daimi qoşun saxladığı son Qərbi Afrika ölkəsi olan **Seneqal**dan da çıxma prosesini başa çatdırıb. Bu qərar Seneqal Prezidenti Bassirou Diomaye Fayenin bütün xarici qoşunların ölkədən çıxarılması tələbindən sonra verilib.

Paris həmçinin Çad və Fil Dişi Sahili kimi ölkələrdəki son hərbi bazalarını təhvil verib. Hazırda yalnız Cibutidə təxminən **1500 fransız hərbçisi** qalır. Qabonda Fransa bazası ortaq hərbi düşərgəyə çevrilib və orada təxminən **350 fransız hərbçisi** fəaliyyət göstərir. Fil Dişi Sahilində isə az sayda fransız hərbçisi yerli orduya təlim xidməti göstərir.

Bununla da, Fransa artıq Afrikada hərbi mövcudluq və inkişaf yardımı modelindən daha çox, iqtisadi əməkdaşlıq və ticarət modelinə keçməyə çalışır.

**Fransa investisiyaları, yeni iqtisadi və hərbi rəqabət**

"Kasi Insight" şirkətinin məlumatına görə, Afrikada **3000-dən çox** fransız müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrin əksəriyyəti **Şimali Afrika** və **fransızdilli ölkələr**də cəmləşib. Telekommunikasiya, enerji və bank sektoru əsas fəaliyyət istiqamətləridir. Buraya "Orange", "TotalEnergies", "Orano" və "Société Générale" kimi şirkətlər daxildir.

Lakin Sahel bölgəsində Fransa investisiyaları ciddi çətinliklərlə üzləşir. Məsələn, Nigerdə 50 ildən çox müddətdə uran hasil edən "Orano" şirkəti 2023-cü il çevrilişindən sonra yerli törəmə müəssisələrinə nəzarəti itirdiyini açıqlayıb. Keçən il, 2025-ci ildə isə, Niamey "Orano" şirkətinin 63 faiz paya sahib olduğu törəmə müəssisə olan "Somair" mədən şirkətini milliləşdirib[7].

"Kasi Insight" şirkətinin təsisçisi Yannick Lefang bildirib ki, Fransa ilə əlaqəli bir sıra şirkətlər ya fəaliyyətlərini məhdudlaşdırır, ya genişlənmə planlarını dondurur, ya da yenidən danışıqlar təzyiqi ilə üzləşirlər. Onun sözlərinə görə, mediadakı başlıqlarda tez-tez "Fransanın Afrikanı tərk etməsi" fikri səslənsə də, reallıq tam geri çəkilmədən daha çox, təsirin yenidən bölüşdürülməsidir. **Qeyd edilənlərə nəzərən, son dövrdə Sahel hökumətlərinin Rusiya, Türkiyə, Körfəz ölkələri və getdikcə daha çox Çin ilə tərəfdaşlığa üz tutduğunu müşahidə etmək mümkündür.**[8]

Fransa son dövrlərdə müstəmləkə keçmişi olmayan **Nigeriya** və **Keniya** ilə münasibətlərini gücləndirməyə çalışır. Hər iki ölkədə ümumilikdə 300-ə yaxın fransız şirkəti fəaliyyət göstərir. Qərbi Afrikanın ən böyük iqtisadiyyatı olan Nigeriya təhlükəsizlik böhranı fonunda Fransa ilə hərbi əməkdaşlığı da genişləndirib. 2024-cü

[7] Niger to nationalise uranium mine operated by French state-affiliated firm | Mining News | Al Jazeera
[8] Can Macron's Kenya visit revive French influence in Africa? | Business and Economy News | Al Jazeera

ilin əvvəlində tərəflər Nigeriyada kritik infrastruktur, səhiyyə, nəqliyyat və bərpa olunan enerji layihələrini dəstəkləmək məqsədilə **300 milyon avro**luq investisiya müqaviləsi imzalayıblar.

Fransa eyni zamanda Keniya ilə də müdafiə sahəsində əməkdaşlığı gücləndirib. Tərəflər kəşfiyyat məlumatlarının paylaşılması, dəniz təhlükəsizliyi və sülhməramlı fəaliyyət sahələrində əməkdaşlığı nəzərdə tutan müqavilə imzalayıblar.

Qeyd etmək lazımdır ki, ingilisdilli Afrika ölkələrində rəqabət daha sərtdir. Bunun nümunəsi kimi 2025-ci ildə Keniya Prezidenti Ruto tərəfindən Fransanın "Vinci Highways" şirkəti ilə avtomobil yolu müqaviləsinin ləğv olunması göstərilə bilər. Daha sonra həmin layihə Çin şirkətinə verilib.

Makron administrasiyası hesab edir ki, Afrika ilə münasibətlərin gələcəyi qarşılıqlı iqtisadi maraqlara əsaslanan "qazan-qazan" modelindən keçir. Xüsusilə, proqnozlara görə, 2050-ci ilə qədər dünya əhalisinin dörddə birinin, 2075-ci ilə qədər isə üçdə birinin Afrikada yaşayacağı nəzərə alınarsa, Paris Afrika ilə münasibətləri uzunmüddətli strateji tərəfdaşlıq kimi qiymətləndirir.

**Nəticə**

Emmanuel Makronun sözügedən səfəri Fransanın Afrikaya dair strategiyasında mühüm transformasiyanı əks etdirir. Paris ənənəvi frankofon ölkələrə yönəlmiş yanaşmadan tədricən çıxaraq Şərqi Afrika və daha geniş qlobal iqtisadi tərəfdaşlıqlara əsaslanan yeni model formalaşdırmağa çalışır.

Bu yeni yanaşma Fransanın **Çin, Körfəz ölkələri, Türkiyə və Rusiya** kimi aktorların Afrikada artan təsiri fonunda öz mövqeyini qorumaq və gücləndirmək cəhdləri ilə sıx bağlıdır. Xüsusilə enerji keçidi, süni intellekt, rəqəmsal texnologiyalar və infrastruktur layihələri Parisin yeni prioritet istiqamətlərinə çevrilir.

Səfər həmçinin Fransa ilə Misir arasında strateji tərəfdaşlığın dərinliyini bir daha ortaya qoydu. Paris Qahirəni **Yaxın Şərq** və **Şimali Afrika**da sabitliyin təmin olunmasında əsas aktorlardan biri kimi görür. Misirin **Qəzza zolağı, Liviya böhranı** və **Sudan** müharibəsi kimi regional məsələlərdə vasitəçi və sabitləşdirici rol oynadığı nəzərə alınarsa, bu kontekstdə Makronun səfəri həm də regional siyasi məsləhətləşmələr və diplomatik koordinasiya platforması kimi qiymətləndirilə bilər.

Eyni zamanda, Makron və Keniya Prezidenti Vilyam Ruto tərəfindən həmsədrlik edilən "Africa Forward" sammiti Fransa–Afrika münasibətlərində yeni mərhələnin simvolu kimi təqdim olunur. Bu platforma gənclər, innovasiya, investisiya və iqtisadi əməkdaşlıq üzərində qurulan yeni modelin ön plana çıxmasını göstərir.

**Ümumilikdə Makronun Afrikaya yanaşması üç əsas istiqamətdə formalaşır:**

1. Fransa artıq "keçmiş müstəmləkəçi güc" deyil, bərabər tərəfdaş kimi çıxış etməlidir;

2. Münasibətlər yardım mərkəzli modeldən investisiya və birgə istehsal modelinə keçməlidir;
3. Afrika ilə əlaqələr geosiyasi rəqabət fonunda yenidən dizayn olunmalıdır.

Bu çərçivədə səfər "Afrikanı geri qaytarmaq" cəhdi deyil, Fransanın qitədə dəyişən güc balansına uyğun şəkildə yenidən mövqe tutmaq və iqtisadi rəqabətdə qalmaq strategiyası kimi qiymətləndirilir. Makronun çıxışlarında səsləndirdiyi əsas mesaj da bu dəyişikliyi təsdiqləyir: *"Afrika artıq yardım alan qitə deyil, investisiya və birgə inkişaf üçün strateji tərəfdaşdır. Son 25 ildə dəyişən geosiyasi reallıqlar — Çin, ABŞ, Türkiyə və digər aktorların artan təsiri — Fransanı öz Afrikaya yanaşmasını yenidən qurmağa vadar edib."*

Bu siyasətin konkret nəticəsi kimi, Makronun Afrika üçün ümumilikdə 23 milyard avro həcmində investisiya paketini elan etməsi təkcə iqtisadi əməkdaşlığın genişlənməsini deyil, həm də yeni "qazan-qazan" modelinin praktik mərhələyə keçdiyini göstərir.

**Beləliklə, Fransanın Afrika siyasəti artıq klassik təsir modelindən çıxaraq daha çox rəqabətə əsaslanan, iqtisadi maraqlar və strateji tərəfdaşlıq üzərində qurulan yeni mərhələyə daxil olur.**

**Müəllif: Lalə Xəlilzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) aparıcı məsləhətçisi**